# İlahiyyat İnstitutu yeni layihəyə başlayır

Azərbaycan İlahiyyat İnstitutunun (AİÎ) yeni layihəsi - "İlahiyyat TV" fəaliyyətə başlayır. Layihənin məqsədi İslam və digər elmləri özündə ehtiva edəcək proqramlarla dini maarifləndirmə istiqamətində doğru və düzgün məlumatlar vermək, eyni zamanda sosial-psixoloji və aktual problemləri müzakirə etməkdir.

"İlahiyyat TV" "yutub" platforması üzərindən İslam elmləri, dünya dinləri, din sosiologiyası, din psixologiyası və fəlsəfəyə aid proqramlar və dərslərin yayımlanmasını nəzərdə tutur. İlkin olaraq "Müasir dünya və din" və "İslam deyir ki..." proqramlarının, eyni zamanda Təfsir, Hədis və Ərəb dili (danışıq) dərslərinin çəkilişlərinə başlanılıb.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutu tədrislə yanaşı, cəmiyyətin dini maariflənməsi istiqamətində bir sıra layihələr həyata keçirir.

*"Azərbaycan"*